UOT 37.01.

***Elçin Əli oğlu Məhəmmədli,***
*Azərbaycan Dövlət Pedaqoji Universiteti*

# ÜMUMTƏHSİL MƏKTƏBLƏRİNİN VI-IX SİNİFLƏRİNİN ÜMUMİ TARİX KURSLARININ TƏDRİSİNDƏ ŞAGİRDLƏRDƏ TƏNQİDİ TƏFƏKKÜRÜN İNKİŞAF ETDİRİLMƏSİ YOLLARI

***Эльчин Али оглу Магомедли,***
*Азербайджанский Государственный Педагогический Университет*

# ПУТИ УЛУЧШЕНИЯ КРИТИЧЕСКОГО МЫШЛЕНИЯ В ОБЩЕОБРАЗОВАТЕЛЬНЫХ ШКОЛАХ В ПРЕПОДАВАНИИ КУРСОВ ОБЩЕЙ ИСТОРИИ ДЛЯ VI-IX КЛАССОВ

***Elchin Ali Mohammedly,***
*Azerbaijan State Pedagogical University*

# THE WAYS TO İMPROVE CRİTİCAL THİNKİNG İN STUDENTS OF VI-IX CLASSES OF SECONDARY SCHOOLS

**Xülasə**: Məqalədə mövzunun aktuallığı əsaslandırılıb, ümumi tarix dərslərində şagirdlərin təfəkkürünün inkişaf etdirilməsi problemi işlənilib. Problemin işlənmə səviyyəsinə münasibət bildirilib. Şagirdlərdə təfəkkürün inkişaf etdirilməsi dərsin keyfiyyətinin yüksəldilməsinə motiv yaradır.
***Açar sözlər:*** *tənqidi təfəkkür, analiz və sintez, şəxsiyyətin inkişafı, demokratik düşüncə*

**Резюме**: В статье подтверждена актуальность темы, разработана проблема развития мышления учащихся на уроках общей истории. Было высказано отношение к развитию проблемы. Автором отмечено, что развитие мышления создает мотивацию у учеников для улучшения качества проведения уроков.
***Ключевые слова:*** *критическое мышление, анализ и синтез, развитие личности, демократическое мышление*

**Summary:** In this article, substantiated of subject's pressing, worked on development of student's (pupil's) cogitative at the general history lessons. Treatment of working on all those problems are reflected development (improvement) of student's cogitative create a motive for keep quality of lessons as much as high.
***Key words:*** *critical thinking, analysis and synthesis, personality development, democratic thinking*

Aparılan araşdırmalar göstərir ki, şagirdlərdə üç əsas təfəkkür növü inkişaf etdirilməlidir:

- yaradıcı;
- məntiqi;
-tənqidi təfəkkür.

Gələcəyin vətəndaşı olan bu günün şagirdi bütün həyat hadisələrindən müstəqil baş çıxarmağı, müxtəlif situasiyalarda özünü aparmağı, vəziyyətdən çıxış yolu tapmağı, hadisə və prosesləri düzgün dəyərləndirməyi mütləq bacarması ehtiyacı bu problemi daha əhəmiyyətli edir. Tənqidi təfəkkürü formalaşdırmaq və onun inkişafı üçün şagirdlərdə, ilk növbədə, intellektual maraq aşılanmalıdır. Bunun üçün isə müxtəlif rakursdan yanaşma, dəyərləndirmə, münasibət bildirmə kimi vacib nüanslar diqqət mərkəzində saxlanmalıdır. Ümumi tarix fənni də bu baxımdan aşağıdakı xüsusiyyətlərə malikdir:

- Hər bir tarixi faktın xarakterinə uyğun proqnozlaşdırılmaların aparılması
- Tarixi faktların təhlilinə müxtəlif mövqelərdən yanaşılması

- Əsas tarixi hadisələr və onlar arasında səbəb-nəticə əlaqələrinin araşdırılmasının üzə çıxarılması və s. (1, s. 7)

Tənqidi təfəkkür əqli prosesin yeni üslubudur. Keçən əsrin 80-ci illərindən Amerikada, 90-cı illərindən isə Avropa ölkələrində formalaşmağa başlamışdır. Tənqidi təfəkkürün vəzifələri bunlardır:

1. Müəyyən etmək: mətn və ya nitq konkret olaraq kimin dəyərlər toplusunu və istiqamətlərini özündə əks etdirir;
2. Hökmün birmənalı olduğunu şübhə altına almaq;
3. Öz düşüncələrində vicdanlı və ədalətli olmaq;
4. Yanlış nəticələrə gətirib çıxara bilən mənfi yanaşmaları müəyyən etmək;
5. Hadisələrə qərəzli yanaşmadan qaçmaq.

Bu gün yeniyetmə şagirdlər, tələbələr, siyasi sistemlər, dövlət idarəetməsi və vətəndaş cəmiyyətinin problemlərindən baş çıxarmağı anlamalıdır. Vətəndaş cəmiyyətində yaşayan, fəaliyyət göstərən şəxslər aşağıdakı bacarıqlara yiyələnməlidirlər:

1) Sağlam düşüncə; 2) mükəmməl təşkilatçılıq qabiliyyəti; 3) məntiqi fikir, tənqidi yanaşma və obyektivlik; 4) geniş təxəyyül və başqasının baxışlarını anlamaq bacarığı; 5) detallara və incəliklərə ciddi diqqət yetirmək. (2, s. 24)

XXI əsr şəxsiyyətdən öz mühakimələrində və əməllərində azad olmağı, məsuliyyətli və tənqidi düşünməyi, mövqeyini müdafiə etmək bacarığını tələb edir. On illərdir ki, bir çox təhsil işçiləri, psixoloqlar, filosoflar düşünmənin müxtəlif səviyyələrini fərqləndirmiş, təhliletmə, qiymətləndirmə, problem həlletmə, qərar qəbuletmə, tənqidi düşünmə kimi yüksək qabiliyyətli bacarıqlar üçün yüksək səviyyəli düşünmə bacarığı lazım olduğunu vurğulamışlar. Tənqidi düşüncə nədir?

"Kritik" sözü qədim yunan sözü "kritikos" sözündən olub, mühakimə etmək, seçmək, qərar vermək kimi tərcümə olunur. Tənqidi düşüncə hər hansı bir məsələ barəsində aydın və rasional düşünmə bacarığıdır.

Tənqidi təfəkkürün prinsipləri də imkan vermir ki, materialı şagirdlərin beyninə güclə "yedizdirək". Misal olaraq, VI sinfin ümumi tarix kursunda "Qədim Yunanıstan" mövzusunu tədris edərkən müəllim Drakon qanunları və bu qanunların mahiyyəti haqda qısaca məlumat verir. Drakon qanunları aristokrat təbəqənin mənafeyini müdafiə edən və demosun vəziyyətinə birbaşa, həmçinin dolayı yolla təsir edən qanunlar toplusu olmuşdur. 12-13 yaşı olan məktəb şagirdinin təsəvvüründə xalq və aristokratiya anlayışını formalaşdırmaq, pisi yaxşıdan, zalımı xeyirxahdan fərqləndirmək önəmli prosesdir. Şagirdin gözündə həmin yaş dövründə zalım deyə anlayış hələ tam formalaşmamışdır və onun gözündə hər kəs eyni dərəcədə yaxşıdır. Hadisələrdən nəticə çıxarmağı öyrətmək və onda tənqid məfhumunu formalaşdırmaq müəllimin ilkin öhdəliklərindəndir. "Hazır" bilikləri mənimsəmək kifayət deyil, şagird təlim prosesi zamanı özünün düşünüb hasil etdiyindən yararlanmalıdır (3).

VI- IX sinifləri üçün nəzərdə tutulmuş ümumi tarix dərslikləri şagirdlərin idrak fəaliyyətinin fəallaşmasına kömək edərək onlarda elmi mülahizələr oyatmağa, tarixi faktları dərk etməyə yönəlmişdir. Şagirdlər qədim Misir sivilizasiyasından başlayaraq, Avropada baş vermiş burjua inqilablarına qədər böyük bir dövrü öyrənməklə bərabər müxtəlif xalqların mədəniyyətini, ayrı-ayrı ictimai formasiyaların bir-birini necə əvəz etməsini öyrənməlidirlər. Bunu həyata keçirmək üçün şagirdlərdə elmi təfəkkür elmi biliklərlə sintezdə olmalı, şagirdlər tarix dərslərinə məntiqi və tənqidi cəhətdən yanaşmağı öyrənməlidirlər (4, s. 41).

XXI əsrin xüsusiyyəti - insanlara lazım olan bilik, bacarıq, vərdiş kimi

keyfiyyətlərin aşılanmasını tələb edir. Bunu əsrimizin aşağıdakı xüsusiyyətləri zəruri edir:

1) Biz sürətlə dəyişən dünyada yaşayırıq. Daima dəyişən həyatın şəraitinə uyğunlaşmaq üçün çevik olmaq, yeni şəraitə uyğun öz qabiliyyətlərini gerçəkləşdirməyi bacarmaq, özünüinkişafa və özünütəkmilləşdirməyə hazır olmaq zəruridir.

2) Daima artan məlumat axını müasir insanın üzərinə sel kimi axır. Müasir dövrdə gün ərzində aldığımız informasiyanı 200 il bundan əvvəl yaşayan insanlar bir il ərzində əldə edirdilər. Əldə olunan biliklər məlum olmamış köhnəlir və bu da insanlara mövcud problemlərin həlli üçün qazandıqları biliklərlə kifayətlənməyə imkan vermir.

3) Vaxt məhdudiyyətinin artması fəal və yaradıcı olmaq, şəraitdən tez baş çıxarmaq, təşəbbüs göstərmək, müstəqil olaraq yeni məsələlər qarşıya qoymaq və qərar qəbul etməyi bacarmaq zərurətini yaradır. (5, s. 342-343)

**Mövzunun aktuallığı.** Problemlə bağlı metodik ədəbiyyatların araşdırılmasından aydın oldu ki, tarixin tədrisində şagirdlərdə tənqidi, məntiqi və yaradıcı təfəkkürün inkişaf etdirilməsi xüsusi didaktik və tərbiyəvi əhəmiyyət kəsb etsə də, bu problem bu vaxta qədər tədqiq edilməyib. Bu sahədəki boşluğu doldurmaqda oxuculara təqdim etdiyimiz məqalə xüsusi əhəmiyyət kəsb edir.

**Məqalənin nəzəri əhəmiyyəti** ondan ibarətdir ki, əldə olunan materiallardan həm magistrantlar, həm də tarixin tədrisi metodikası ilə məşğul olan mütəxəssislər istifadə edə biləcəklər.

**Məqalənin praktiki əhəmiyyəti** ondan ibarətdir ki, onun məzmunundan ümumtəhsil məktəblərinin müəllimləri gündəlik pedaqoji fəaliyyətdə istifadə edə biləcəklər.

Nəticə olaraq deyə bilərik ki, müasir cəmiyyətin görmək istədiyi şəxsiyyətin ilkin inkişaf yönümlərindən biri də tarix dərslərində şagirdlərin təfəkkürünün vasitəsilə həyata keçir.

## Ədəbiyyat:

1. Azərbaycan Respublikasının ümumtəhsil məktəbləri üçün ümumi tarix fənni kurikulumu. Bakı, 2012.
2. Cəbrayılov İ. Şəxsiyyətyönlü təhsil və vətəndaş cəmiyyəti. Bakı, 2011.
3. İnternet resursları. http://aztehsil.com/news/5141-agirdlrin-yaradc-tfkkr-v-tdqiqatlq-qabiliyytinin-inkiaf-etdirilmsi.html
4. Təhsilin inkişafı üzrə dövlət strategiyası: perspektivlər və vəzifələr. Bakı, 2015.
5. Əmirov M.M. Ümumtəhsil məktəblərində tarixin fəal (interaktiv) təlimi metodikası. Bakı, 2014.

**E-mail:** mhmmdli95@inbox.ru
**Rəyçilər:** *ped.ü.elm.dok., prof.* M. Əmirov
*tarix.ü.fəl.dok.* S. Həziyeva
**Redaksiyaya daxil olub:** 12.12.2018.